

Fariz Çobanoğlu




**“Əsrin əvvəlindən - yetmiş il əvvəldən, yetmiş il əvvəlin uzaqlığından gələn və yorulmaq bilmədən üzü dağlara at çapan o adamı bir kimsə tanımadı və əslində görən də olmadı. Düz yetmiş il idi, o naməlum atlının yol gəldiyi. Atın döşündən axıb ayaqlarının arası ilə süzülən tər də yetmiş ilin təri idi”.**

# “Əsrin əvvəlindən gələn atlı”

***Bu şah sətirləri oxuduqca sərhədlər, hüdudlar bilməyən fikrin-xəyalın, nəinki əsrin əvvəllərinə, hətta neçə əsrləri, minillikləri adlayıb, hörümçək toru kimi çözələyib bu günə gətirən insan beyninin dərin qatlarında tarixin olaylarını əks etdirən qapılar açılır. Və bu qapılardan əsrlər boyu azadlıq mücahidlərinin, haqq və ədalət uğrunda mübarizlərin, insanlığın yenilməzliyini təsdiq edən ərənlərin kürəyinə saplanan xəncərin dəstəyindən yapışan xəyanətkar əllərin sahibi çox aydın görünür.***



Bir çox xəstəliklərin genetik olması, nəsildən-nəslə ötürülməsi kimi, xəyanətkarlığın və eləcə də mərdanəliyin də irsiliyi varisdən-varisə keçməsi atlını yetmiş illik zaman fasiləsində bir çox tarixi faciələrlə üzləşdirilmiş və hər dəfə ölüm ona canavar dişlərini qıcamışdırsa da, atlının əsrin sonlarına qədər gəlib çatması onun “şah ölümü” ilə nəticələnmişdi.

***Ecazkar səs sahibi, gözəl müğənni və istedadlı yazıçı Zəka (Allahverdiyev) Vilayətoğlunun “Şah ölüm” romanı Bakı “Şərq-Qərb” nəşriyyatı tərəfindən oxucuların ixtiyarına verilmişdir. Romanda XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr və bu hadisələrə münasibəti ayrı-ayrı adamların xarakterində aşkarlayan yazıçı əslində o illərin canlı səhnəsini yarada bilmişdir.***

Əsərin ana xəttini Gədəbəy dağlarında yaşamış, əsli, nəcabəti ilə, eləcə də savadlı, elmli adam kimi ətrafda tanınan Məcid ağa Şəkibəyovun keşməkeşli həyatı, onun 1918-1920 – ci illərdə ermənilərin törətdiyi qırğında və 1929-1930-cu illərdə isə Şura hökumətinə qarşı etiraz üsyanı təşkil edir.

Roman ayrı-ayrı başlıqlar altında yazılsa da, hər fəslin özünün müstəqil süjet xətti var. Hər fəsildə Məcid ağanın yeni keyfiyyətləri, xarakterinin bütövlüyü üzə çıxır və oxucunu, əsəri axıra qədər oxumağa məcbur edir.

“Əsrin əvvəlindən gələn atlı” bölməsində uzun yolun yorğunluğundan sonra atlının “sağ əlini qaşı üstünə aparıb, şərin əllərində boğulan gündüzün dar, ensiz işıq zolağıyla, iti, işıqlı gözlərini əsrin əvvəllərinə tuşlaması” həssas oxucunu özü ilə birlikdə tarixin ibrət dərslərini xatırlamağa və nəticə çıxarmağa sövq etmirmi? Tarix boyu IV yüzillikdən sonra heç vaxt dövləti, sikkəsi, bayrağı olmayan ermənilər 1918-ci ildə Azərbaycanın tarixi əraziləri hesabına Ermənistan dövlətini yaratmağa çalışırlar. Bu çalışqanlığın arxasında dayanan məkrli siyasəti zaman-zaman həyata keçirmək üçün “sapı özümüzdən olan baltalar”dan məharətlə istifadə etmişlər.

***Məcid ağa, Qara Musa kimi igidlərin qolunu bağlamaq üçün, yalnız daxili qüvvələrdən, xəyanətkarların gücündən istifadə etmək lazım gəlir.***

1918-1920 –ci illərdə erməni vəhşiliyini tam çılpaqlığı ilə göstərən yazıçı qeyd edir ki, “ermənilər əllərinə keçən qızları zorlamış, azyaşlı oğlan uşaqlarına dözülməz işgəncələr vermişdilər. 12-14 yaşında bir oğlan uşağının başını diri-diri qaynar su dolu qazanın içinə toyuq kimi salıb çıxarmış, tükünü yolunca zavallı uşağının başının dərisi də saçla birgə qopub ələ gəlmişdir. Sonra daha bir neçə azyaşlının ovcuna köz basmış, onların gözlərindən yaş əvəzinə qan tökmüşdülər”. Bu vəhşiliyə qarşı Məcid ağa, Qara Musa, Niftalı ağa, Mustafa ağa, Muka Namaz kimi igid, cəsur oğullar dözə bilmirlər, birləşərək, öncə Göyçə mahalının Pənbək, Burcalı dağı ərazilərində, daha sonra Tovuz və Gədəbəy aralığında yerləşən Xınna dərəsindəki qanlı döyüşlərdə erməniləri böyük tələfata uğradır və onları geri çəkilməyə məcbur edirlər. Bütün bu hadisələrin ardıcıllığı və tarixiliyə riayət olunması “Şah ölüm” əsərini sənətkar qələmindən çıxmış bir roman, eyni zamanda salnaməçilər tərəfindən yazılmış sənədli xronika adlandırmağa imkan verir. Romanda təsvir olunan “birgözlü hökuməti” heç də yaxşı qarşılamayan ağalar, katibi sorğu-suala tutaraq, Şura hökumətinin başqa hökumətlərdən nə ilə fərqləndiyini soruşurlar. O, cavab verir:

***-Biz yuxarıların əmri ilə hərəkət edirik. Bizim qurduğumuz dövlət, azad cəmiyyət insanlar arasında fərqi sevmir. Hamıya, hər kəsə bir gözlə baxır.***

Ömründə “birgözlü hökumət” görməyən Mustafa ağa heyrətini gizlədə bilməyib təkgözlü hakimiyyətin insanlardan çox yarasalara fayda verəcəyini düşünür. Həqiqi mənada Sovet Hökumətini nəhəng bir təpəgözə bənzətmək olardı. Çünki bu təpəgöz yetmiş illik zaman fasiləsində insanları nəhəng dəyirmanlarda ələkdən keçirib, “iriliərini” udmuş, xırdalarını isə cəmiyyət üçün “yararlı” olduğuna görə saxlamışdır. Bu nəhəng təpəgözlə vuruşmaq isə adi adamların işi deyildi. Yenicə yaranmış Şura Hökumətinin tələbləri ilə razılaşmayan Məcid ağa və onun ən yaxın silahdaşları dağlara çəkilib uzun müddət mübarizə aparsalar da bu mübarizə Məcid ağanın və başqa adlı-sanlı igidlərin qəhrəmancasına ölümü ilə nəticələnmişdir.



Yazıçı, əsərin qəhrəmanı Məcid ağanın ölüm səhnəsini “Məcidi Məcid vurdu” başlığı altında verməklə, şahanə bir vida səhnəsi yaratmışdır.

Sıldırım qayaların döşündəki mağarada qərar tutmuş Məcid ağa və onun bir neçə silahdaşının rus əsgərləri ilə döyüşdə silah ehtiyatı tükənir. Bunu görən Məcid ağa silahdaşlarını gizli yolla qaçmağa məcbur edir, özü isə düşmənlər mağaraya yol tapanacan bıçaqla tüfənginin qundağına bu sözləri yazır: “Məcidi Məcid vurdu”. Sonra isə ədalətsiz dünyaya etiraz əlaməti olaraq, “əlimdə əlacım olsaydı, bir güllə də çaxardım, bu nanəcib, etibarsız dünyanın təpəsinə”,-deyib saxladığı iki güllədən birini ürəyinə atır. Güllənin sərrast olmadığını görüncə ikinci gülləni çənəsinin altından atıaraq, həyatla vidalaşır.

***Sözün həqiqi mənasında müəllif azadlıq carçısını, köləliyin barışmaz düşmənini, namus-qeyrət qalasının bariz nümunəsi olan Məcid ağanın ölümünü də şahanə incilərlə bəzəmişdir. Və təsadüfi bir məqam deyildi ki, rus çinovniki Məcid ağanın ölümündən sarsılır və bəlkə də ömründə birinci dəfə ağlayır. Bu epizod romanda oxucunu dəhşətə gətirən, hansı kökdən qopduğunu diqtə edən xüsusi bir hadisə, eyni zamanda bədii hadisədir. Əsərin finalına doğru yaxınlaşdıqca oxucu bir tamaşaçıya dönüb əsrin əvvəllərindən üzü bəri at çapan atlının əsrin sonlarında yenidən tarixi faciələrlə üzləşdiyinin şahidi olur. Oxucu başa düşür ki, nə qədər tarximizi bilmirik, özümüzü tanımayacağıq. Nə qədər ki, tarixdən ibrət dərsi götürmürük, həmişə xain qonşuların xəyanəti ilə üzləşəcəyik. Yazıçı bunu demək istəyir; tarixini unudan hər bir millətin süquta uğraması danılmaz faktdır. Nəhayət, istedadlı yazıçı Zəka Vilayətoğlunun “Şah ölüm” romanı Azərbaycan tarixinin şanlı səhifələrini yazan igidlərdən bəhs edən bir tarix kitabıdır. Öz tarixini öyrənmək istəyən hər bir Azərbaycan vətəndaşının bu romanı oxuması gərəkli olardı.***




***“Əsrin əvvəlindən gələn atlı” bölməsində uzun yolun yorğunluğundan sonra atlının “sağ əlini qaşı üstünə aparıb, şərin əllərində boğulan gündüzün dar, ensiz işıq zolağıyla, iti, işıqlı gözlərini əsrin əvvəllərinə tuşlaması” həssas oxucunu özü ilə birlikdə tarixin ibrət dərslərini xatırlamağa və nəticə çıxarmağa sövq etmirmi? Tarix boyu IV yüzillikdən sonra heç vaxt dövləti, sikkəsi, bayrağı olmayan ermənilər 1918-ci ildə Azərbaycanın tarixi əraziləri hesabına Ermənistan dövlətini yaratmağa çalışırlar. Bu çalışqanlığın arxasında dayanan məkrli siyasəti zaman-zaman həyata keçirmək üçün “sapı özümüzdən olan baltalar”dan məharətlə istifadə etmişlər...***